**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət İqtisad Universiteti-UNEC**

**Zaqatala Filialı**

# ZAQATALA İQTİSAD MƏKTƏBİNİN

# ƏSASNAMƏSİ

**Azərbaycan Dövlət İqtisad Universitetinin**

**Zaqatala filialının Elmi Şurasının qərarı ilə təsdiq edilir**

**Zaqatala-2020**

**Maddə 1. Ümumi müddəalar**

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala filialının Zaqatala İqtisad Məktəbi (bundan sonra - ZİM) UNEC Elmi Şurasının 25.12.2019 tarixli qərarı və UNEC rektorunun müvafiq əmri ilə filialda fəaliyyət göstərən dekanlığın bazasında yaradılmışdır.

ZİM Təhsil haqqında Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq normativ-hüquqi aktlarına, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına, UNEC Zaqatala filialının Əsasnaməsinə və bu Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

ZİM UNEC-in regional ali iqtisadi təhsil missiyasının icrasını təmin edir, Universitetin bundan irəli gələn müsbət nəticələrdən region və dünya ali təhsil məkanında dayanıqlı rəqabət üstünlüklərinin formalaşması üçün faydalanmasına şərait yaradır. Tələbələrin məktəbdə ali iqtisadi təhsil, sistemli bilik, bacarıq və işgüzar idarəetmə vərdişlərinin aşılanmasına və müasir biznes informasiyalarının araşdırılması qabiliyyətinin formalaşmasına, analitik düşünmə və qərarvermə qabiliyyətinin qazanılmasına, onların müəssisə və təşkilatlarda müxtəlif məsul vəzifələr tutmasına peşəkarlıq nöqteyi nəzərdən hazır olmalarına imkan yaradır.

ZİM UNEC Zaqatala filialının struktur bölməsidir, UNEC Zaqatala filialının direktoru və UNEC rektoruna tabedir.

ZİM-də aşağıdakı ixtisaslar üzrə ali təhsilli peşəkar iqtisadçı mütəxəssislərin hazırlanması həyata keçirilir:

- Mühasibat uçotu və audit;
- Maliyyə;
- Menecment;
- Marketinq;
- Biznesin idarə edilməsi;
- İqtisadiyyat;
- Turizm işinin təşkili;
- İnformasiya texnologiyaları.

ZİM-in Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət İqtisad

Universitetinin (UNEC) Zaqatala filialının və ZİM-in adı əks edilmiş dairəvi möhürü, həmçinin müəyyən olunmuş nümunəvi blankları vardır.

ZİM-nə UNEC Zaqatala Filialı tərəfindən istifadəyə verilmiş əmlak UNEC Zaqatala Filialının mülkiyyətidir. ZİM fəaliyyətini həyata keçirmək üçün ona idarəetmə hüquqları ilə verilmiş əmlakdan təhsil müəssisələri üçün müəyyən edilmiş qaydada istifadə hüququna malikdir.

Filialın hüquqi ünvanı: Zaqatala şəhəri 6200, Əhməd Rəcəbli küçəsi, 4.

**Maddə 2. ZİM-in əsas məqsədləri:**

ZİM-nin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

-dünya elm və təhsil məkanına çoxsaylı inteqrasiyaya nail olunması

-UNEC-in rusdilli elm və təhsil məkanına inteqrasiyasının təmin edilməsi;

-Avrasiya məkanında elm və təhsil sferalarında mübadilə prosesində UNEC-in iştirakının təmin edilməsi;

-ZİM məzunlarının postsovet məkanının əmək bazarına çıxışı və həmin bazara adaptasiya prosesinin həyata keçirilməsi;

-Elm və təhsil sferaları üzrə xidmətlərin ixracı;

-ZİM-nin bazasında ölkədə iqtisadyönümlü elmi-analitik expert mərkəzinin formalaşması;

-Beynəlxalq tələblərə cavab verən, öz məsuliyyətini dərk edən, milli ənənələrə və demokratik prinsiplərə, biznes etikasına, kreativ-innovativ və müstəqil düşüncə tərzinə malik olan və azərbaycançılıq ideyalarına sadiq olan ali təhsilli ixtisaslı peşəkar mütəxəssislərin hazırlanması;

-Nəzəri və praktiki biliklərə yiyələnən, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, müasir təfəkkürlü və rəqabət qabiliyyətli peşəkar mütəxəssis kadrların hazırlaması;

-İqtisadi etika, təqdimat qabiliyyəti, vaxtın idarə edilməsi, məntiqli düşüncənin formalaşdırılması və səmərəli əmək fəaliyyətinə inteqrasıyasının təmin edilməsi;

-Müəssisə və təşkilatlarda müxtəlif məsul vəzifələrin tutulması üçün tələbələrin hazırlanması, eyni zamanda onlara kollektivlə işləmək bacarığı, iş prosesində yaradıcı və əsaslandırılmış qərar qəbul etmək bacarığı və vərdişlərinin aşılanması;

-Tələbələrə hökumət, qeyri-hökumət, ictimai və kommersiya yönümlü təşkilatlarda, müxtəlif sahibkarlıq subyektlərində struktur və fəaliyyət sahəsinə təsir edəcək dəyişikliklərə çevik reaksiyanın verilməsi ilə bağlı vərdişlərin aşılanması, onlarda qanunvericilikdə, iqtisadiyyatda və biznes mühitində planlaşdirma və proqnozlaşdırma, habelə digər peşə kompetensiyalarının formalaşdırılması;

-ZİM elm və təhsil sahəsində yaranmış yeni meylləri qiymətləndirərək UNEC Zaqatala Filialı və UNEC rəhbərliyi qarşısında təşəbbüslərlə çıxış edir, UNEC-in və ZİM-in müsbət imicinin formalaşdırılmasına, mövqeləşməsinə və brendləşməsinə çalışır.

**Maddə 3. ZİM-nin əsas vəzifə və funksiyaları**

ZİM-nin əsas vəzifə və funksiyaları aşağıdakılardır:

-ZİM hazırladığı ixtisaslar üzrə təcrübədən keçmiş interaktiv təlim vasitələrinin və eləcə də müasir elmi, nəzəri və praktik biliklərin tətbiqini təmin edir;

-Keçirilən fənnlərin tədrisini tələbələrə bilik və işgüzar keyfiyyətlərin aşılanmasını, onların dərsdə iştirak etməsini, kollokviumların keçirilməsini, semestr imtahanlarını (müxtəlif formalarda) təşkil edir, eləcə də bu proseslərə nəzarət və rəhbərlik edir;

-ZİM-in tabeliyində olan kafedra və ya kafedraların, eləcə də digər strukturların fəaliyyətinə nəzarət və rəhbərlik edir;

-Tədris planını aparıcı universitetlərin tədris standartlarına uyğun işləyib hazırlayır və təsdiq edilməsi üçün UNEC-in Elmi Şurasına təqdim edir;

-Tədris proqramlarının reallaşdırılmasını (sillabus) yüksək səviyyədə, mövcud standartlara uyğun təşkil edir;

-Tədris, elmi-tədqiqat işləri və digər fəaliyyətlərin planlaşdırılmasını və təşkilini həyata keçirir;

-Əməli fəaliyyət prosesində müasir elmi-texniki informasiya vasitələrindən səmərəli istifadəni təmin edir;

-Cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin peşəkar səviyyədə mənimsənilməsini həyata keçirir;

-İqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəli ali təhsilli peşəkar mütəxəssislər hazırlayır;

-Sistematik və fərdi əsaslı carı və ya gözlənilən problemlərin aradan qaldırılmasını aşılayan bilikləri tədris edir;

-Beynəlxalq səviyyəli ixtisas, lisenziya və sertifikat imtahanlarına hazırlıqları ödənişli əsaslarla təşkil edir;

-Kreativ-innovativ ideyaların təqdim edilməsi üzrə ödənişli əsaslarla təşəbbüskarlıq seminarlarını keçirir;

-Regional və beynəlxalq əhəmiyyətli elmi-tədqiqat işləri, texniki yardım layihələri, qrantlar və digər birgə maliyyələşdirilən dövlət və özəl müsabiqələrdə iştirak edir;

-Elmi iclaslar, simpoziumlar, forumlar, dəyirmi masalar, tədris və metodiki konfranslar, seminarlar və görüşlər keçirir;

-Müxtəlif qurumların sifarişləri əsasında elmi, elmi-tədqiqat və tədris fəaliyyəti çərçivəsində araşdırma, mühazirə və ekspert xidmətlərini ödənişli əsaslarla təşkil edir;

-İqtisadiyyatın müxtəlif sahələri üzrə aparıcı universitetlərdə və digər təhsil, elmi müəssisələrdə tədris olunan dərs vəsaitlərinin tərcüməsi, tədris və metodiki vasitələrin, səsli və vizual vəsaitlərin hazırlanmasını reallaşdırır;

-Digər universitetlərin proqramları, ixtisasartırma müəssisələri və elmi- tədqiqat təşkilatları ilə əməkdaşlığı həyata keçirir;

-ZİM-nin elmi və tədris kadrları UNEC-in professor-müəllim heyəti ilə yanaşı, digər ali təhsil müəssisələrinin professor-müəllim heyəti, ölkədə fəaliyyət göstərən yerli və xarici təşkilatlarda məsul vəzifədə çalışan rəhbər şəxslər, peşəkar menecerlər və müqavilə əsasında dünyanın aparıcı təhsil müəssisələrindən dəvət edilmiş professor-müəllim heyətindən ibarət ola bilər;

-Aparıcı universitetlərlə tələbələrin, professor-müəllim heyətinin üzvlərinin mübadiləsinə, ikili (double) və üçlü (triple) diplomların verilməsinə və tanınmasına nail olmaq məqsədilə beynəlxalq əməkdaşlıq memorandumların imzalanmasını təşkil edir;

-ZİM-nin tabeliyində olan kafedra və ya kafedraların, eyni zamanda tabeliyində olmayan, amma ZİM-də tədris və elm prosesində iştirak edən müəllimlərin peşəkar hazırlığının lazımi səviyyədə olmasına nəzarət edir;

-ZİM hüquqi şəxs olmayan digər köməkçi bölmələr yarada bilər;

-ZİM-də tələb olunan standartlar üzrə elm, tədris fəaliyyəti, tələbələrin ixtisas təcrübələrinin keçməsi, tələbələrlə təlim-tərbiyyə istiqamətləri üzrə işlər təşkil edilir və bütün bu istiqamətlər üzrə cari və strateji idarəetməni təşkil edir;

-ZİM tərkibində fəaliyyət göstərən tələbə təşkilatlarının fəaliyyətinə rəhbərlik edir;

-Davamlı və dayanaqlı inkişafı təmin etmək üçün strateji və cari fəaliyyətdən irəli gələn digər vəzifələri həyata keçirir.

**Maddə 4. ZİM-in strukturu və idarə edilməsi**

ZİM ali təhsil müəssisəsinin tədris elm və inzibati bölməsi olub, eyni sahə və istiqamət daxilindəki bir və ya bir-birinə yaxın olan bir neçə ixtisas üzrə bakalavr, magistr, aspirant, doktor hazırlanması, müvafiq sahə üzrə rəhbər işçilər və ixtisaslı sıravi mütəxəssislərin (kadrların) ixtisasının artırılması (və yenidən hazırlanması) işini həyata keçirir, eləcə də elmi-tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir.

ZİM-nə ümumi rəhbərlik məktəbin elmi şurası tərəfindən həyata keçirilir. Məktəbin Elmi Şurası UNEC rektorunun əmrinə əsasən 3 il müddətinə seçilir. Məktəbin Elmi Şurasının sədri-rəhbərdir. Fakultə Elmi Şurasının vaxıtndan əvvəl yenidən seçilməsi onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə, həmçinin müstəsna hallarda UNEC rektorunun təqdimatına görə həyata keçirilə bilər. Fakultə Elmi Şurasının tərkibi UNEC rektoru tərəfindən təsdiq edilir. Fakultə Elmi Şurasının tərkibi və səlahiyyətləri Azerbaycan Respublikasının Təhsil Nazirliyi təsdiq edilmiş qaydalarla tənzimlənir.

ZİM-nin strukturu, əməkdaşlarının say həddi UNEC Zaqatala filialının direktorunun əmri ilə müəyyən edilir. ZİM-nə ümumi rəhbərliyi strukturun rəhbəri, o olmayanda isə kafedra müdiri həyata keçirir.

ZİM-nin idarəetmə strukturu aşağıdakı ştat vahidlərindən ibarətdir:

**Rəhbər:**

Rəhbər UNEC-in rektorunun razılığı əsasında, Zaqatala filialının direktoru tərəfindən vəzifəyə təyin edilir, vəzifəsindən azad edilir və ZİM-in fəaliyyətinə ümümi rəhbərlik edir. Rəhbər tutduğu vəzifə üçün müvafiq normativ əsasında əlavə əmək haqqı alırlar.

- Rəhbər fakültədə tədris prosesinə, tərbiyə işinə və elmi-tədqiqatların yerinə yetirilməsinə bilavasitə rəhbərlik edir;
- Təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartları tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin edir;
- Ayrı-ayrı kafedraların tədris yükünün düzgünlüyünü yoxlayıb, onlara rəy verir;
- Tələbələrin elmi, pedaqoji və istehsal praktikalarının həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;

-Fakültə üzrə dərs cədvəllərinin tərtibinə rəhbərlik edir, onun optimal variantlarının təmin olunması üçün məsuliyyət daşıyır və həyata keçirilməsinə nəzarət edir;

-Tələbələrin müstəqil işlərinə nəzarət edir və onların elmi fəaliyyətləri üçün şərait yaranmasını təmin edir;

-Tələbələrin imtahan və yoxlamalarının (məqbulların) keçirilməsinə nəzarəti təşkil edir, akademik borcları ləğv etmək üçün onlara göndəriş verir və bütün imtahan-məqbul prosesinin normal, mövcud tələblərə uyğun keçirilməsinə birbaşa cavabdehlik daşıyır;

-Tələbələri semestrdən-semestrə və kursdan-kursa keçirmək, eləcə də tələbələr sırasından xaric etmək və təkrar kursda saxlamaq üçün direktora təqdimatlar verir;

-Tələbələrin buraxılış-yekun dövlət imtahanlarında, buraxılış işlərinin və magistr dissertasiyalarının müdafiəsinə buraxılmasına icazə verir;

-Məktəbdə təhsil alan tələbələrə mövcud qaydaya uyğun şəkildə təqaüdü almasına rəhbərlik edir;

-Məktəbdə çalışan professor-müəllim heyətinin ixtisas artırması və yenidən hazırlanması işinin həyata keçirilməsinə rəhbərlik edir;

-Məktəbin profilinə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodiki göstərişlərin hazırlanmasına

təşəbbüs göstərir və bu işə ümumi rəhbərlik edir;
-Kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsini təşkil edir və onlara rəhbərlik edir;
-Ümumməktəb elmi-metodiki və elmi seminarların təşkil olunmasını təmin edir;
-Məktəbdə hazırlanan ixtisaslar üzrə peşə yönümü işinin aparılmasına təşkil edir və onun lazımi səviyyədə aparılmasına məsuliyyər daşıyır;
-Ali təhsilin hər iki pilləsi, eləcə də aspirantura və doktorantura üzrə məktəbdə hazırlanması mümkün və zəruri olan ixtisasları, ixtisaslaşmaları müəyyənləşdirir, onlar üzrə illik və perspektiv qəbul planları üzrə ali məktəbin rəhbərinə təkliflər təqdim edir;
- Məktəbin elmi şurasına rəhbərlik edir;
-Məktəb ilə bağlı olan bütün tədbirlərdə, komissiyalarda, yığıncaq və şuralarda məktəbi təmsil edir;
-Rəhbər müavinləri təyin etmək üçün təqdimat verir. Dekan müavini fakültə dekanının təqdimatı əsasında ali məktəbin direktorunun əmri ilə təyin olunur. Rəhbər müavini fakültənin profili üzrə ixtisas sahibi olmaqla yanaşı, elmi ad və ya dərəcəyə də malik olmalıdır.
-Məktəbdə olan bütün tədris-köməkçi heyətin işinə nəzarət edir, onların işə qəbulu və işdən azad olunması, eləcə də rəğbətləndirilməsi və cəzalandırılması üçün ali məktəb rəhbərlərinə təqdimat verir;
Məktəb ali təhsil müəssisəsinin başçısının (rektorun) təşəbbüsü ilə ali təhsil müəssisəsinin Elmi Şurasının qərarı əsasında ləğv oluna bilər. Bu qərar ali təhsil müəssisəsinin tabe olduğu mərkəzi idarəetmə orqanının rəhbəri tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.

**Kafedra müdiri:**

Kafedra ali məktəbin ZİM-in (fakültənin) əsas tədris elm struktur bölməsi olub, bir və ya bir neçə yaxın fənlər üzrə tədris, metodiki və elmi-tədqiqat, elmi-pedaqoji və elmi işçilərin hazırlanması, yenidən hazırlanması, ixtisaslarının artırılması, təhsil alanlar arasında yenidən hazırlanması işlərini həyata keçirir.

Kafedra müdiri ZİM-in rəhbərinin təqdimatı əsasında UNEC-in Zaqatala filialının direktoru tərəfindən vəzifəyə təyin və azad edilir. Kafedra müdiri vəzifə təlimatlarına uyğun olaraq rəhbərin tapşırıqlarını icra edir və ZİM-də cavabdeh olduqları sahələrə nəzarət və rəhbərlik edirlər;

Kafedraya ümumi rəhbərlik, bir qayda olaraq elmlər doktoru, professor və ya elmlər doktoru elmi dərəcəsi və elmi rütbəsi olan kafedra müdiri tərəfindən həyata keçirilir. Kafedra müdirinin ayrı-ayrı sahələr üzrə (tədris elmi tərbiyə və s.) ictimai əsaslarla müavinləri olur. Kafedranın kollektiv idarəetmə orqanı onun iclasında öz səlahiyyətlərini həyata keçirən kafedra kollektividir. Kafedra iclaslarının tərkibi müzakirə olunan məsələlərə əsasən müəyyən edilir

Kafedranın əsas vəzifələri:

- Bütün təhsil formaları üçün tədris planlarında nəzərdə tutulmuş mühazirələrin, laboratoriya, praktiki, seminar və digər dərslərin yüksək elmi-nəzəri səviyyədə aparılması;
- Kurs və diplom işlərinə (layihələrinə) istehsalat və digər təcrübələrə, tələbələrin sərbəst dərslərinə rəhbərlik edilməsi;
- Kollokvium və imtahanlarının keçirilməsində iştirak;
- Dövlət imtahanlarının təşkili və keçirilməsində iştirak;
- Təhsil alanlar arasında tərbiyə işinin təşkili;
- Kafedrada tədris edilən fənlər üzrə tədris proqramlarının işlənib hazıırlanması və müvafiq qaydada təsdiq üçün təqdim olunması, həmçinin digər kafedraların hazırladıqları tədris proqramlarına rəy verilməsi;
- Dərslik, dərs vəsaitləri, metodiki rəhbərlik və göstərişlər, əyani vəsaitlər və s. hazırlanması, rektorluğun (fakültənin) göstərişi ilə dərslik, dərs vəsaiti və tədris metodiki ədəbiyyata rəy verilməsi;
- Elmi-tədqiqat işlərinin aparılması, tələbələrin elmi tədqiqat işlərinə rəhbərlik edilməsi;
- Tamamlanmış elmi-tədqiqat işlərinin müzakirəsi, onların istehsalata tətbiq edilməsi və nəşr edilməsi üçün rəy verilməsi;
- Kafedra əməkdaşlarının tədris, elmi-metodiki və digər işlərinin fərdi

planlarının hazırlanması və həyata keçirilməsi;

- Respublikanın və xarici ölkələrin ali məktəblərinin ayrı-ayrı kafedralarının, professor-müəllim heyətinin qabacıl iş təcrübəsinin öyrənilməsi və yayılması, yeni işə başlayan və gənc müəllimlərə pedaqoji təcrübə toplamaqda köməklik göstərilməsi;

- Tədris prosesində müasir texniki vasitələrdən istifadə edilməsinə dair tədbirlər hazırlanıb həyata keçirilməsi;

- Elmi-pedaqoji və elmi kadrların, kafedra əməkdaşlarının, həmçinin rektorluğun (fakültənin) tapşırığına əsasən digər iddiaçıların dissertasiyalarının müzakirə edilib rəy verilməsi;

- Qabaqcıl təcrübənin öyrənilməsi və onlara elmi-metodiki köməklik göstərilməsi məqsədilə müxtəlif müəssisə və təşkilatlarla əlaqələrin təşkil edilməsi;

- Müxtəlif sahələrdə (mədəniyyət, elm, səhiyyə, maarif və s.) çalışan mütəxəssislərin ixtisaslarının artırılmasına köməklik göstərmək;

- Ali təhsil müəssisələrinin məzunları və bu kafedraların aspirant məzunları ilə daim əlaqənin təşkil edilməsi;

Kafedra ən azı 5 professor-müəllim (o cümlədən, 3 nəfər elmi dərəcəyə malik) olduqda yaradılır. Kafedranın illik tədris yükü 3,0 min saatdan az olmamalıdır. Bir sıra kafedralar: fiziki hazırlıq, xarici dil (dilçi mütəxəssislər hazırlayan ali məktəblərdən başqa), rəsm qrafika kafedraları elmi dərəcəsi və elmi adı olan işçilər olmadıqda da yaradıla bilər.

Kafedra iclaslarına digər ali məkrəblərin, elmi-tədqiqat institutlarının, müəssisə və təşkilatların işçiləri də dəvət oluna bilər. Kafedra iclaslarında aşağıdakı məsələlər müzakirə və təsdiq edilir:

- Kafedranın bütün fəaliyyət növləri üzrə, eyni zamanda müəllimlərin, elmi, tədris-yardımçı heyəti, aspirantların, staj keçənlərin və fərdi planla təhsil alan tələbələrin plan və hesabatları;

- Kafedra tərəfindən tədris olunan kurslar üzrə tədris vəsaitləri, proqramlar, imtahan materialları;

- Müəllimlərin tədris yükü və tədris yükünün bölünməsi;

- Kafedra tərəfindən təşkil edilən seminarların, konfransların, sərgilərin və s. tematikası;
- Kurs və diplom layihələrinin tematikası, rəhbərlərin və rəy verənlərin təyini, layihələrin müdafiəyə buraxılması;
- Elmi və metodiki işlərin nəşr olunma qaydalarına dair təqdimatların verilməsi;
- Öz səlahiyyətləri daxilində xarici ölkələrə, staj keçməyə və ixtisasartırma fakültələrinə ezam etmək, doktoranturaya keçirmək, yaradıcılıq məzuniyyətləri vermək;
- Kafedra iclasında qəbul olunan qərarlar barədə fakültənin elmi şurasına, zərurət olduqda isə ali məktəb rektorluğuna və elmi şurasına məlumat verir.

Kafedra iclaslarında aşağıdakı məsələlər barədə təklif, tövsiyə və ya təqdimat qəbul edilir:

- Kafedra müdirinin seçilməsi;
- Müəllim və elmi işçilərin işə qəbulu, onlarla müqavilə bağlanması, mövcud Əsasnaməyə uyğun olaraq onlara vəzifə maaşı və əlavələrin təyin edilməsi;
- Aspiranturaya, magistraruraya, doktoranturaya qəbul və iddiaçıların kafedraya təhkim olunması;
- Dissertasiyaların müdafiəyə qəbul edilməsi;
- İnstitut və ya fakültə tərəfindən elmi və tədris-metodiki əsərlərin nəşri;
- Tələbələrin müəyyən fənnlər üzrə fərdi planla təhsilə keçirilməsi;
- İşçilərin və təhsil alanların həvəsləndirilməsi və ya cəzalandırılması;
- Kafedraların müəllimlərinin, elmi işçilərin və digər əəkdaşların tutduqları vəzifədən kənar edilməsi;

Kafedra iclaslarında qərarlar açıq və gizli səsveermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Tədris-metodiki məsələlərin və kafedra əməkdaşlarının işə qəbul olunanlar haqqında təqdimatların müzakirəsi zamanı tədris-tərbiyə prosesində şəxsən iştirak edən kafedra üzvləri həlledici səsə malikdirlər. Qərarlar qəbul edilərkən kafedra üzvlərindən birinin təklifi ilə gizli səsvermə aparıla bilər.

Kafedra müdiri:

- Kafedra iclaslarını çağırır, onlara sədrlik edir, onların qərarlarını təsdiq edir;

- Hər il kafedranın fəaliyyəti barədə hesabat təqdim edir;

- Kafedranın işini planlaşdırır və təşkil edir, onun fəaliyyətinə rəhbərlik edir;

- Fakültədə, ali mktəbdə, kənar təşkilatlar kafedralarını təmsil edir;

- Kafedra müdirinin müavinləri vəzifələrinə namizədlər təklif edir;

- Kafedranın fəaliyyətinin nəticələrinə görə kafedranın kollektivi, fakültə, ali məktəb elmi şuraları və rəhbərlik qarşısında məsuliyyət daşıyır.

- Kafedra müdirinin müxtəlif sahələr üzrə (tədris, elm, tərbiyə və sə) müavinləri mövcud qaydada seçilir.

- Kafedra mövcud qaydada ali məktəb (fakültə) elmi şurasının təqdimatına əsasən rektorun əmri ilə yaradılır və ləğv edilir.

- Kafedranın professor-müəllim və elmi heyərinin vəzifələrə seçilməsi bir qayda olaraq mövcud əssnaməyə uyğun müsabiqə yolu ilə həyata keçirilir.

- Kafedra kargüzarlığı mövcud qaydada təsdiq edilmiş nomenklaturaya uyğun olaraq aparılır.

- Kafedranın və onun tərkibindəki digər struktur qurumların Əsasnaməsi Ali məktəb haqqında Əsasnaməyə, bu Əsasnaməyə uyğun olaraq hazırlanır və ali məktəbin elmi şurası tərəfindən təsdiq edilir.

**Bölmə rəhbərləri:**

- Növbəti tədris ili üçün müəllim heyətinin kompekləşdirilməsi və akademik yüklərin normativə uyğun olaraq bölüşdürülməsini birbaşa həyata keçirmək;

- Müəllimlər işə qəbul edilərkən onun ixtisasının bölmənin profilinə uyğunluğuna nəzarət etmək;

- Tədris ili ərzində sillabusların və tədris materiallarının hazırlanmasına, dərslərin keyfiyyətli tədrisinə nəzarətin təşkili, mühazirələrin dinlənilməsi, açıq dərslərin və elmi seminarların təşkili təmin etmək.

- İxtisaslar üzrə tədris olunan fənlərin dərslik, dərs vəsaiti, tədris metodik vəsaitlərin təşkili və mühazirə fondunun yaradılmasını təmin etmək;

- İqtisadiyyat və İdarəetmə bölməsinin müəllim heyəti arasında sağlam mənəvi mühitin yaradılmasını təmin etmək;
- Bölmədə tədrisi həyata keçirilən ixtisaslar üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi üçün mütamadi tədbirlərin keçirilməsinin təşkil olunması;
- Bölmədə tədris ili ərzində tələbələrin kurs və diplom işlərinə (layihələrinə), istehsalat və digər təcrübələrə, tələbələrin auditoriyadankənar fəaliyyətinə rəhbərlik etmək;
- Tələbələrin elmi-pedaqoji fəaliyyətinə istiqamət vermək və elmi kadrlar kimi yetişmələrinə dəstək göstərmək;
- Professor-müəllim heyəti tərəfindən fənnin tədrisinin onun məqsəd və təlim nəticələrinə uyğun aparmasına nəzarət edir;
- Bölmə üzrə cari işlərin yerinə yetirilməsinə nəzarət etmək;
- Elm, təhsil və təcrübənin vəhdəti prinsipinə əsaslanaraq tələbələr arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliğ edilməsi və bu isdiqamətdə gənclərin marağının artırılmasına köməklik göstərilməsi;
- Tələbələrdə tədqiqatçılıq fəaliyyətinə və elmi metodların öyrənilməsinə motivasiyanın yaradılması, tədris materiallarının dərindən və yaradıcı şəkildə mənimsənilməsinə köməklik göstərilməsi;
- İstedadlı gənclərin məqsədyönlü şəkildə elmi tədqiqat və elmi-təşkilati işlərə cəlb edilməsi.

**Katib:**

- Zaqatala İqtisad Məktəbinin Katibi ZİM rəhbərinin təqdimatı , UNEC rektorunun razılığı əsasında UNEC Zaqatala Filialının direktoru tərəfin vəzəfəyə təyin edilir və azad edilir. ZİM-nin Katibi UNEC Zaqatala Filialının inzibati strukturuna rəhbərliyi həyata keçirir, katibliyə daxil olan struktur vahidlərinin fəaliyyətini koordinasiya edir və onun normal fəaliyyət göstərməsinə görə Zaqatala İqtisad Məktəbinin rəhbəri, UNEC Zaqatala Filialının direktoru və Azərbaycan Dövlət İqtisad Universitetinin(UNEC) rektoru qarşısında məsuliyyət daşıyır. Katibliyin vəzifələri aşağıdakı kimidir:
  - Katibliyin məqsəd və hədəflərini müəyyən edir, bunu Katibliyin bütün

işçilərinə bildirir, həyata keçirilməsi üçün əməkdaşları istiqamətləndirir;

- Katibliyin fəaliyyəti üzərində ümumi nəzarəti həyata keçirir, ortaya çıxan nöqsanların aradan qaldırılması istiqamətində tədbirlər görür;
- Katibliyin hər bir əməkdaşı vəzifə təlimatlarında nəzərdə tutulmuş funksiyaların yerinə yetirilməsinə, həmçinin hazırladığı, araşdırdığı və imzaladığı sənədin qanunvericilik aktlarına, rektorun və direktorun əmr və sərəncamlarına uyğunluğuna görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır;
- Katibliyə aid resurslarından səmərəli istifadəni təmin edir;
- Tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra intizamına riayət etmələrinə nəzarət edir;
- Katibliyin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görülməsi üçün filial rəhbərliyinə və rektorluğa təqdimatlar verir;
- Katibliyin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində filialın struktur bölmələrindən və digər qurumlarından zəruri məlumat və sənədləri alır;
- Katibliyə daxil olan məktub, ərizə, şikayət və təkliflərə baxılmasını təşkil edir;
- Katibliyin maddi texniki ləvazimatla təminatını filialın müvafiq struktur bölmələri vasitəsilə təşkil edir;
- İmtahanların keçirilməsi ilə bağlı xüsusi halların araşdırılması üçün müvəqqəti komissiyalar yaradır, onların say və tərkibini, iş reqlamentini müəyyən edir;
- Katibliyin fəaliyyəti barədə Universitet rektoruna və filialın direktoruna, Zaqatala İqtisad Məktəbinin direktoruna mütəmadi olaraq hesabatlar və məlumatlar verir;
- Katibliyin hər bir əməkdaşı ona məlum olan və xidməti sirr təşkil edən məlumatların mühafizə olunmasına görə öz vəzifəsinə və

səlahiyyətlərinə uyğun məsuliyyət daşıyır.

- Bu Əsasnaməyə uyğun digər vəzifə və səlahiyyətləri həyata keçirir.

**Keyfiyyət təminatı və qiymətlənidrmə üzrə mütəxəssis:**

- Mütəxəssis vəzifəsinə ZİM-in rəhbərinin təqdimatı ilə UNEC Zaqatala fililalının direktoru tərəfindən təyin edilir və təsdiq edilmiş vəzifə təlimatı üzrə fəaliyyət göstərir. Keyfiyyətin təminatı və qiymətləndirmə üzrə mütəxəssisin vəzifləri aşağıdakı kimidir:

- Tədris prosesinin keyfiyyətli professor-müəllim heyəti, tədris materialları, lazımı infrastruktur ilə təminatı üçün zəruri tədbirlərin görülməsi;

- Tədris planlarının, proqramlarının və biliyin qiymətləndirilməsi metodikasının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə bağlı tədbirlərin görülməsi;

- Tədris prosesinin monitorinqini prosesində iştirak etmək və nəticələrin təhlili üçün zəruri tədbirlər görmək;

- Filialda tədrisin keyfiyyətinin yüksəldilməsi və tələbələrin elmi biliklər əldə etməsi prosesinin effektivliyinin artırılması üçün praktiki tədbirlərin həyata keçirilməsində köməklik göstərmək;

-Tədris-proqram sənədlərinin və metodiki materialların işlənib hazırlanmasının keyfiyyətinə nəzarət etmək;

- Tələbələr arasında tədrisin keyfiyyəti ilə əlaqədar sorğuların keçirilməsi;

- Tədrisin keyfiyyətinin və katibliyin xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tətbiq edilən yeniliklərin tətbiqində iştirak etmək;

- Filialda kollokvium və yekun imtahanların keçirilməsində iştirak etmək.

- İmtahanlarda daxili nizam-intizam qaydalarını pozan tələbələr haqqında protokolların hazırlanması.

- Müəllimlərin dərsə davamiyyətinə nəzarət etmək və qaydaları pozan müəllimlər haqqında katibliyə və digər müvafiq bölmələrə məlumatın verilməsi.

- Davamiyyət jurnalların ümumi vəziyyətinə nəzarət edilməsi.

- Filialda tədrisin keyfiyyəti ilə bağlı hesabatların hazırlanması.

**Tədris işləri üzrə mütəxəssis:**

- Mütəxəssislər ZİM rəhbərinn təqdimatı əsasında UNEC-in Zaqatala fililalının direktoru tərəfindən vəzifələrinə təyin edilir və vəzifələrindən azad olunurlar, vəzifə təlimatlarına uyğun olaraq Katib, ZİM rəhbəri və direktor müavinlərinin tapşırıqlarını icra edirlər. Tədris işləri üzrə mütəxəssisin vəzifələri aşağıdakı kimidir:

- Tələbə hərkətliliyi (akademik məzuniyyət, xaric olunma, bərpa və s.) ilə bağlı əmrlərin hazırlanması;
- Dərs, kollokvium və yekun imtahanların imtahan cədvəllərinin hazırlanması;
- Filialda tədris prosesinin təşkili bağlı tapşırıqların yerinə yetirilməsi;
- Tələbələrin tədris ilə bağlı suallarının qeydə alınması və cavablandırılması, cavablandırılması katibliyin səlahiyyəti xaricində olduğu təqdirdə digər bölmələrə yönləndirilməsi.
- Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında keçirilən kollokvium və yekun imtahanların keçirilməsində iştirak etmək.
- Katibliyin əsasnaməsinə uyğun olaraq digər tapşırıqların yerinə yetirilməsi

**Təcrübə işləri üzrə mütəxəssis:**

- Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında əmək bazarının tələb və ehtiyaclarına uyğun kadr hazırlığının aparılmasına köməklik göstərir.

- Tələbə və məzunlara karyera imkanları haqqında məlumatların təqdim olunmasına, müəyyən tövsiyələrin verilməsi, onların işlə təmin olunması məsələlərində tövsiyələr verir.

- Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında təcrübənin, təlimlərin və seminarların təşkili və aparılmasında iştirak edir.

- Filalın yerləşdiyi regionda fəaliyyət göstərən müəssisələrin universitetlə əməkdaşlığa cəlb edilməsində tədbirlər görmək.

**Tyutorlar:**

Kredit sistemi ilə təhsil alan tələbələrə köməklik göstərmək məqsədi ilə ali təhsil müəssisələrində akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil olunur. Tyutorlar vəzifələrinə ZİM-in rəhbərinin təqdimatı ilə UNEC Zaqatala fililalının direktoru tərəfindən təyin edilirlər və təsdiq olunmuş vəzifə təlimatı ilə fəaliyyət göstərirlər. Tyutorların vəzifələri aşağıdakılardır:

- Tyutorlar tələbələrin akademik maraqlarını qoruyur və müdafiə edirlər.
- Tyutorlar tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim edirlər.
- Tələbələrin fərdi və işçi planlarının tərtibi üçün tyutorlar onlara qrup və fərdi məsləhətlər verirlər.
- Tyutorlar tədris ili ərzində müntəzəm olaraq akademik məsləhətlər təşkil edirlər.
- Tyutorlar müəyyən olunmuş müddətdə tələbələrin fərdi planlarının qəbulunu təşkil edir və istiqamətlər (ixtisaslar) üzrə işçi planlarının tərtibində iştirak edirlər.
- Tyutorlar tələbələrə fərdi tədris planlarında dəyişikliklər aparmasına yardım göstərirlər.
- Tyutorlar istiqamət (ixtisaslar) üzrə təhsil almaq üçün lazım olan bütün metodik materialların vaxtında hazırlanmasına və mövcudluğuna nəzarət etmək hüququna malikdirlər.
- Tyutorlar tələbələrin fənlər üzrə attestasiyalarının keçirilməsinə nəzarət edir və ali məktəbin rəhbərliyi tərəfindən təşkil olunan nəzarət komissiyalarının işində iştirak edə bilərlər.
- Üzürlü səbəbdən imtahanlarda iştirak etməyən tələbələrə yenidən imtahan təşkil edilməsi və nəticələri ilə əlaqədar protokol hazırlamaq.

**Laborant:**

- Laborant vəzifəsinə ZİM-in rəhbərinin təqdimatı ilə UNEC Zaqatala

fililalının direktoru tərəfindən təyin edilir və təsdiq edilmiş vəzifə təlimatı üzrə fəaliyyət göstərir.

**Operator-karguzar:**

Operator kargüzar vəzifəsinə ZİM-in rəhbərinin təqdimatı ilə UNEC Zaqatala fililalının direktoru tərəfindən təyin edilir və təsdiq edilmiş vəzifə təlimatı üzrə fəaliyyət göstərir. Operator- karguzarın vəzifələri aşağıdakılardır:

- Katiblikdə istifadə olunan sənədlərin elektron yığılmasında, yazılmasında köməklik edir.
- Müxtəlif layihələr və tədbirlər çərçivəsində katiblik işçilərinə yardım edir.
- Katibliyin təşkilati tədbirlərini təşkil edir.
- Katibliyə daxil olan zənglərin qəbul edilməsi.
- Katiblikdə işlənilən elektron və kağız sənədlərin saxlanılması və mühavizə edilməsi.
- Katibliyə daxil olan müraciət və şikayətlərin qəbul edilməsi.
- İmtahan prosesinin təşkilində iştirak edir.

**Maddə 5. ZİM-in Elmi şurası.**

ZİM-in Elmi Şurası ZİM-də elm, tədris və digər sahələr üzrə inkişaf strategiyasını müəyyən edən, cari idarəetməyə dair müvafiq qərarlar qəbul edən qurumdur. Qurum UNEC-in Zaqatala filialının direktorunun əmri ilə yaradılır. Elmi Şuraya rektorun əmri ilə ZİM-in direktoru, direktor müavinləri, ZİM-in tabeliyində olan kafedra və ya kafedraların müdirləri, professor-müəllim və tələbə heyətinin fərqlənən nümayəndələri daxil edilirlər. Şuraya ZİM-in direktoru sədrlik edir. Direktor Şuranın iclasında iştirak etmədikdə Şuraya Şuranın sədr müavini (direktorun elmi işlər üzrə müavini) sədrlik edə bilər.

ZİM Elmi Şurasının əsas vəzifələri:

Tədris, tədris-metodiki elmi-tədqiqat işinin aparılması, kadrların ixtisasının artırılması məsələləri, tələbələrlə təlim-tərbiyyə istiqamətində aparılan işlərlə bağlı

müvafiq qərarların qəbulu;

ZİM-in tabeliyində olan kafedraların müdirlərinin, kafedraların tərkibindəki bölmə və ixtisas rəhbərlərinin hesabatlarını dinləyir;

ZİM-in tabeliyində olan kafedralarda fəaliyyət göstərən tədqiqatçılarla iş qaydasını müəyyən edir;

ZİM-in tabeliyində olan kafedraların müəllimlərinə və digər əməkdaşlarına elmi adların verilməsi barədə təkliflər hazırlayır, onların dissertasiyalarının mövzularını və planlarını təsdiq edir, hazır olan dissertasiya işlərinin ilkin müzakirələrini həyata keçirir;

ZİM-in Elmi Şurasının fəaliyyətinin əsas istiqamətləri ZİM-in təqdimatına əsasən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) rektoru tərəfindən təsdiq edilən "Rus İqtisad Məktəbinin Əsasnaməsi" ilə müəyyən edilir.

**Maddə 6. ZİM-in Əsasnaməsinə dəyişiklik və əlavələrin daxil edilməsi qaydaları**

ZİM-in Əsasnaməsinə dəyişiklik və əlavələr ZİM-in Elmi Şurası tərəfindən səs çoxluğu ilə UNEC-in Elmi Şurasına təqdim edilir;

ZİM-in Əsasnaməsinə edilən dəyişiklik və əlavələr UNEC-in Elmi Şurasının üzvləri tərəfindən səs çoxluğu əsasında qəbul edilir.

**Maddə 7. ZİM-in yenidən təşkil olunması**

ZİM UNEC-in Elmi Şurasının qərarına əsasən UNEC rektorunun əmri ilə yenidən təşkil oluna bilər;

ZİM-in yenidən təşkil olunması, qovuşma, birləşmə, bölgü, yenidənqurma və digər formalarda həyata keçirilə bilər.

**Maddə 8. ZİM-in ləğv olunması**

ZİM aşağıdakı əsaslarla ləğv oluna bilər:

UNEC-in Elmi Şurasının qərarına əsasən UNEC rektorunun əmri ilə;

Mövcud qanunvericiliklə nəzərdə tutulmuş əsaslarla və qaydalarla.

UNEC-n Elmi Şurası və yaxud universitet rektoru ZİM-in ləğv olunması ilə bağlı qərar qəbul edərkən ləğv olunma komissiyası təyin edilir və qanunun tələblərindən çıxış edərək ZİM-in ləğv olunması qaydası və müddəti müəyyənləşdirilir.

**Maddə 9. Digər şərtlər**

Bu Əsasnamədə nəzərdə tutulmayan digər məsələlər UNEC-in Nizamnaməsi və UNEC Zaqatala filialının əsasnaməsi əsasında qanunvericilikdə müəyyən edilmiş qaydada həll edilir;

Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.